*Yeni geosiyasi reallıqlar fonunda Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biridir. İki qardaş ölkə arasında siyasi, iqtisadi, elm və mədəniyyət sahələrində sıx əməkdaşlıq əlaqələri, yüksək səviyyəli qarşılıqlı səfərlərlə daha da dərinləşir. Bu yaxınlıq münasibətləri müttəfiqlikdən strateji tərəfdaşlıq zirvəsinə yüksələrək bölgədə və beynəlxalq aləmdə diqqətçəkən uğur hekayəsinə çevrilib.*



# Qardaşlıq bağları daha da güclənir

Azərbaycanın müstəqilliyinin ilk illərindən başlayaraq Türkiyə ilə münasibətlərin inkişafına xüsusi önəm verilib. 2010-cu il avqustun 16-da imzalanan "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" və "Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə" bu dostluğun və əməkdaşlığın hüquqi əsaslarını möhkəmləndirib. Habelə 2020-ci il fevralın 25-də Bakıda keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında iki ölkə arasında əməkdaşlıq perspektivlərini əhatə edən 13 sənədin imzalanması bu münasibətlərin gələcək inkişafı üçün möhkəm zəmin yaradıb. Xüsusi vurğulanmalıdır ki, 2021-ci il iyunun 15-də Şuşada imzalanan Bəyannamə iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin başlanğıcı hesab olunur. 2022-ci il fevralın 1-də təsdiqlənən Şuşa Bəyannaməsi müttəfiqliyin geostrateji əhəmiyyətinə xüsusi töhfəsini verir. Bəyannamə iki qardaş dövlət arasındakı əlaqələrin indiki şərait üçün ən pik həddi hesab olunur. Digər tərəfdən, Azərbaycanla Türkiyənin istisna olaraq bütün məsələlərdə bir mövqedən çıxış etməsini hüquqi əsasla təsdiqləyir.

**(davamı 2-ci səhifədə)**

# Qardaşlıq bağları daha da güclənir






**(əvvəli 1-ci səhifədə)**

Yeri gəlmişkən, 2025-ci ildə də iki qardaş ölkə arasındakı münasibətlərin daha da genişləndirilməsi, regional və beynəlxalq miqyasda atılacaq birgə addımların səmərəliliyi və perspektivləri çərçivəsində müzakirələr yüksək səviyyədə davam etdirilir. 8 yanvar tarixində Azərbaycan və Türkiyə liderlərinin telefon danışığı təkcə iki dövlət arasındakı möhkəm əlaqələrin təsdiqi deyil, həm də regional məsələlərdə birgə mövqenin əhəmiyyətini bir daha ön plana çıxardı. Bu telefon danışığı zamanı əsas diqqət Suriyada baş verən hadisələrə və regionda sabitliyi pozmağa çalışan qüvvələrin siyasətinə tutarlı mesaj xarakteri daşıyır. Dövlət başçıları vurğulayıblar ki, Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərməsi, həm öz maraqlarını qorumaq, həm də regional sabitliyə töhfə vermək baxımından vacibdir. Bu telefon danışığı qardaşlıq və strateji müttəfiqlik ruhunun təzahürü olmaqla yanaşı, həm də beynəlxalq arenada hər iki dövlətin vahid mövqedən çıxış etməsinin nə qədər önəmli olduğunu göstərir. "Bir millət, iki dövlət" şüarı ilə Azərbaycan və Türkiyə yalnız özlərini deyil, regionu da xaosdan qorumaq üçün birlikdə hərəkət etməkdə qərarlıdır.

Yeni il qardaş ölkələr üçün olduqca böyük perspektivlər vəd edir. Azərbaycan-Türkiyə münasibətləri illərdir regionda strateji əhəmiyyət kəsb edir və bu əlaqələrin 2025-ci ildə daha da dərinləşməsi proqnozlaşdırılır. Ənənəvi əməkdaşlıq istiqamətləri ilə yanaşı, Azərbaycanın Suriya proseslərində tutduğu mövqe qarşılıqlı əməkdaşlığın yeni səhifəsini açır. Məlumdur ki, Yaxın Şərqdə söz sahibi kimi Türkiyənin varlığı və həmlələri ölkənin qlobal oyunçu profilini gücləndirir. Gələn illərdə bu əməkdaşlıq, xüsusilə Suriyanın bərpası layihələri çərçivəsində daha geniş miqyas alacaq. Azərbaycanın bu prosesdə iştirakı təkcə iqtisadi dividendlər əldə etmək deyil, həm də Yaxın Şərqdə mövqeyini gücləndirmək üçün yeni bir platforma rolunu oynayacaq. Suriya problemi geosiyasi məsələ olmaqdan çıxaraq Azərbaycanın regional iqtisadi gücünü artırması üçün bir fürsətə çevrilə bilər. Rəsmi Bakı infrastruktur layihələrində fəal iştirak edərək, Yaxın Şərqdə təsir dairəsini genişləndirmək niyyətindədir. Bu proses, eyni zamanda Azərbaycanı beynəlxalq arenada daha güclü mövqeyə daşıyacaq. Xatırlatmaq yerinə düşər ki, ötən il Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv oldu. Təşkilat adından da göründüyü kimi, iqtisadi əməkdaşlığa üstünlük verir. Məhz təşkilata üzvlüyümüz qlobal miqyasda nüfuzumuzun genişlənməsinə şərait yaradacaq. Qeyd edək ki, Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı bu məsələyə toxunaraq bildirmişdir: "Bizim namizədliyimizi ilk gündən dəstəkləyən Türkiyə olmuşdur. Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mən hətta bir dəfə Türkiyədə keçirilmiş D-8 Zirvə görüşündə də qonaq qismində iştirak etmişdim, təqribən 7-8 il bundan əvvəl. Artıq o vaxtdan bəri Azərbaycanın üzvlüyü ilə bağlı məsələ gündəliyə salınmışdı. Amma təbii ki, bütün üzv ölkələr arasında konsensus olmalıydı və nəhayət, bu konsensus əldə edildi".

Digər tərəfdən, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində birgə təşəbbüslər də Azərbaycanın məqsədlərinə töhfə verəcək. Belə təşəbbüslər həm Azərbaycanın beynəlxalq lider mövqeyini gücləndirir, həm də qardaş Türkiyə ilə olan strateji əlaqələrini daha da möhkəmləndirir. Bu birlik regionun sabitliyi və inkişafı üçün əvəzsiz bir model kimi çıxış edir. Azərbaycanın türkdilli ölkələr təşkilatına ikiillik sədrliyi xalqlar arasında dostluq və qardaşlıq bağlarını daha da gücləndirən strateji bir dövr kimi tarixə yazıldı. Sədrliyimizin pandemiya kimi qlobal bir böhran dövrünə təsadüf etməsinə baxmayaraq, Azərbaycan bu çətin şəraitdə belə türkdilli dövlətlərin həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə daha da yaxınlaşmasını təmin etdi. Xatırladaq ki, ötən il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi zamanı bildirdi ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir: "Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir".

Bu birliyin möhkəmlənməsi, yalnız türkdilli ölkələr üçün deyil, bütövlükdə regionun inkişafı və sabitliyi üçün də əvəzsiz bir töhfədir. Azərbaycan bir daha sübut etdi ki, qardaş xalqlar arasında əlaqələrin inkişafı hər zaman ölkəmizin prioritetində olacaq və bu yolda yorulmadan çalışacaq.

**Nurlan ABDALOV,**
**"Respublika".**